

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 fevral 2023-cü il №10 (2722) https://mod.gov.az Qiyməti 30 qəpik

## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,
Əziz Qardaşım,

Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildirir, faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 fevral 2023-cü il

## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını və kədərləndirdiyini dedi.

Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlarla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirdi.

Azərbaycan Prezidenti qeyd etdi ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır.

Rəcəb Tayyib Ərdoğan zəngə və başsağlığına görə dərin təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı dedi ki, onun tapşırığına əsasən, 420 nəfərdən ibarət xilasedici heyət artıq qardaş ölkəyə göndərilib və hadisə yerinə çatan kimi Türkiyədən olan həmkarları ilə birlikdə dərhal fəaliyyətə başlayacaq.

Prezident İlham Əliyev vurğuladı ki, ehtiyac duyulan ləvazimatlarla bağlı yardım da yaxın vaxtlarda qardaş ölkəyə yola salınacaq.

Türkiyə Prezidenti bu qardaş dəstəyinə görə dövlətimizin başçısına və Azərbaycan xalqına minnətdarlığını ifadə etdi.

## Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyə xalqına başsağlığı verib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladım. Allah faciə zamanı həlak olanlara rəhmət eləsin. Onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıram. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!".

## Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Hulusi Akara başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Türkiyədə baş verən güclü zəlzələ nəticəsində insanların həlak olması və xəsarət alması xəbərləri məni dərindən kədərləndirdi.

Sizin acınız bizim də acımızdır. Biz hər zaman qardaş Türkiyənin yanındayıq.

Bu faciə nəticəsində həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara şəfa diləyirəm.

Allah rəhmət eləsin!"

*Reportaj*

# Qarlı dağlar, qətiyyətli oğullar, inamlı müdafiə



"Oğul düşmən çəpəridir", deyirlər. Öz qətiyyətləri ilə ərazi bütövlüyümüzə keçilməz çəpər olan igid oğullarla görüşə gedirik. Yolumuz çətin relyefli ərazilərdən keçir. İlan kimi qıvrılan enişli-yoxuşlu, daşlı-qayalı yollarla dağların zirvəsində məskən salan Vətən müdafiəçilərinin yanına üz tutmuşuq. Bakıdan fərqli olaraq, buralarda qış fəsli öz xüsusiyyətlərini daha sərt göstərir. Aramsız yağan qar ətrafı ağ örpəyə bürüyüb. Zabit Rövşən Sultanov bir neçə gündür şaxtalı, sazaqlı günlərin davam etdiyini deyir. Yollarda hələ də buzu əriməyən hissələr görünür. Daşlı-qayalı yolların qarla örtülməsi təkərlərin sürüşmə ehtimalını bir az da artırır, sürücünün işini xeyli çətinləşdirir. Lakin təhlükəli və çətin yollar maşında olan heç kimi narahat etmir. Sürücünün təmkini və avtomobili ustalıqla idarə etməsi mənzil başına sağ-salamat çatacağımıza inam yaradır. Bu inam isə bir neçə saatlıq yoldan sonra təsdiqini tapır.

Mənzil başına çatırıq. Yol boyu həmkarım Orxan və hərbi hissənin zabiti Rövşən Sultanovla maraqlı söhbətlər edirik. Rövşən döyüş xatirələrindən, biz döyüşlər zamanı müsahibələr aldığımız zabit və əsgərlərlə bağlı yaddaqalan məqamlardan söhbət edirik. Yaddaşıma əbədi həkk olunan bir xatirəni onlarla bölüşürəm. Dəqiq yadıma gəlmir, döyüşlərin ilk günləri idi. Talış kəndi istiqamətində qızğın döyüşlər gedirdi. Biz də hücum edən bölmədən bir az arxada cəmləşmə rayonunda öz tapşırıqlarımızı icra edirdik. Bu zaman toz-dumanın arasından bir maşın sürətlə bizə tərəf gəldi. Avtomobil dayanan kimi sürücü həyəcanlı səslə qışqırdı: "Maşında yaralı var". Yaralı əsgəri əvvəlcədən orada dayanan təcili yardıma qoydular. Özümü cəld maşının yanına çatdırdım. Təəssüf ki, həmin igidin adını, soyadını qeyd etməyə macal tapmadım. Amma gülə-gülə, məğrur şəkildə dediyi sözləri eşitdim. Yumruğunu sıxıb göyə qaldırdığını gördüm. Yaralı əsgərin "Qələbə bizimdi, düşməni darmadağın edirik, tez sağalıb yenə qayıdacam" bu hayqırışları ətrafa səs salmışdı. Hamı bu səhnə qarşısında donub qalmışdı. Əsgərin yarası ağır idi, lakin onun qətiyyətli sözləri, simasındakı qələbəyə inam hamını ovsunlamışdı. Bu səhnə mənə sevə-sevə oxuduğum "Koroğlu" dastanında bir məqamı xatırlatdı. "Hayqırıb meydanda açsam qol-qanad, qarı düşmən qabağımda olar mat" - deyirdi Koroğlu. Haqq savaşımızda da rəşadətli Azərbaycan əsgərlərinin mübarizliyi, mərdliyi, qəhrəmanlığı dünyaya hay salırdı. Qəhrəman əcdadı kimi, bu əsgər də, digər silahdaşları da Vətən sevgisindən güc alır, qələbə ruhunda döyüşürdülər.

Bu unudulmaz xatirəni hər yerdə qürurla danışıram. Məhz Azərbaycan əsgərinin belə möhkəm, sarsılmaz döyüş ruhu, Vətənə olan sonsuz sevgisi qələbəni təmin etdi. Görüşünə getdiyimiz igidlər də o əsgərlərin davamçılarıdırlar. Onlar da əmanət olunan torpaqlarımızı göz bəbəyi kimi qoruyurlar. Ermənilərin bütün təxribat cəhdlərinin qarşısını vaxtında alırlar. Bu oğulların da hər biri qəhrəmandır və müqəddəs vəzifəni qətiyyətlə yerinə yetirirlər...

Hələ bölməyə çatmamış uzaqdan döyüş növbətçiliyində dayanan əsgərlərimiz gözə dəyirlər. Onlar döyüş postunda hərəkət edir, müşahidə sahəsini bir saniyə belə nəzarətsiz qoymurlar. Maşın dayanan kimi şux qamətli zabit bizi salamlayır. Adının Əlyar olduğunu öyrənirəm.

Əslən Neftçala rayonundan olan Fərəcov Əlyar Vüqar oğlu həmin rayonun Qaralı kəndində anadan olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirib. Əlyar hərb peşəsindən, xidmətin təşkilindən, hava şəraitinin yaratdığı çətinliklərdən danışır. Qış aylarının komandirlərdən və əsgərlərdən ikiqat məsuliyyət tələb etdiyini vurğulayır. "Burada xidmət edən hər kəs ilk öncə vəzifələrinin məsuliyyətini və əhəmiyyətini yaxşı dərk edir. Həm də yaxşı bilirlər ki, şərəfli vəzifəni icra edirlər. Qarşımızda dayanan düşmənin xain xislətinə hamımız yaxşı bələdik. Ona görə də döyüş növbətçiliyini ən yüksək səviyyədə təşkil edir, ayıq-sayıq xidmət aparırıq. Təminat cəhətdən heç bir çətinliyimiz yoxdu. Bütün növ təminatımız aylar əvvəldən tam şəkildə hazırlanıb. Əmin ola bilərsiniz ki, Azərbaycan əsgəri hər şəraitdə torpaqlarının keşiyində ayıq-sayıq dayanır..."

**(Ardı 5-ci səhifədə)**

# Baş Qərargah rəisi hərbi hissələrin intensiv döyüş hazırlığını yoxlayıb

*Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyev hərbi hissələrdə olub, yeni tədris dövründə intensiv döyüş hazırlığı məşğələlərinin gedişini yoxlayıblar.*



Baş Qərargah rəisi məşğələlərin təşkili və icrası ilə bağlı komandir heyətinin məruzələrini dinləyib. Bildirilib ki, bölmələrdə döyüş hazırlığı tədbirlərinin keyfiyyətli təşkilinə xüsusi diqqət yetirilir. Müasir döyüşün aparılması üsulları nəzərə alınmaqla plana uyğun keçirilən məşğələlərdə əsas diqqət şəxsi heyətin fərdi bacarığının və taktiki-xüsusi hazırlığının inkişaf etdirilməsinə yönəldilib.



Müdafiə nazirinin birinci müavini komandir heyətinə məşğələlərin real döyüş şəraitinə uyğun keçirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını alarkən bölmələrimiz tərəfindən görülən cavab tədbirlərini yüksək qiymətləndirdiyini qeyd edən Baş Qərargah rəisi Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları, onların dəqiq və vaxtında yerinə yetirilməsi məqsədilə bölmələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması, silah və texnikanın effektiv tətbiqinin təmin edilməsi ilə bağlı müdafiə nazirinin göstərişlərini aidiyyəti üzrə çatdırıb.



Sonda hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.

**Müdafiə Nazirliyinin Mətbuat Xidməti**

# Müdafiə nazirinin müavini Türkiyənin Gəncə şəhərindəki Baş konsuluna başsağlığı verib

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, fevralın 7-də müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyev Türkiyə Respublikasının Gəncə şəhərindəki Baş konsulu Recep Öztop ilə görüşüb.

General-leytenant Ə.Əfəndiyev Türkiyədə baş verən güclü zəlzələ nəticəsində insanların həlak olması və xəsarət alması ilə bağlı başsağlığı verib. Azərbaycanın hər zaman dost və qardaş ölkə Türkiyənin yanında olduğunu qeyd edib.

Baş konsul R.Öztop isə öz növbəsində göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib.



# Atəş hazırlığı üzrə praktiki çalışmalar yerinə yetirilib

Quru Qoşunlarının 2023-cü il üzrə döyüş hazırlığı planına uyğun olaraq, snayper tüfəngindən və digər atıcı silahlardan atəş hazırlığı üzrə praktiki atış çalışmaları yerinə yetirilib.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, atışdan qabaq şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılıb, onların nəzəri biliklərini artırmaq məqsədilə məşğələlər keçirilib.

Atışın şərtləri ilə tanış olduqdan sonra müxtəlif kateqoriyalardan olan hərbi qulluqçular təlim sahələrində silahların döyüşə hazır vəziyyətinə gətirilməsi və şərti düşmən hədəflərinin aşkar olunaraq məhv edilməsi üzrə tapşırıqları uğurla icra ediblər.

Səhra şəraitində keçirilən təlim atış çalışmalarında əsas diqqət şəxsi heyətin düzgün nişanalma qaydalarına əməl etməklə hədəfləri dəqiq atəşlə məhvetmə qabiliyyətinin artırılmasına yönəldilib.

# Azərbaycan Ordusunda TƏİR kompleksləri üzrə toplanış keçirilib



Azərbaycan Ordusunda 2023-cü ilin döyüş hazırlığı planına uyğun olaraq, tank əleyhinə idarə olunan raket (TƏİR) kompleksi manqasının komandirləri və operatorlarının hazırlığı üzrə toplanış keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, heyətlər tərəfindən kompleksin "Döyüşə" və "Səfərə" gətirilmə qaydaları, hədəfgöstərmə, tuşlama və atışların aparılması üzrə fəaliyyətlər icra olunub.

Şəxsi heyətin bilik və bacarığının qiymətləndirilməsi, eləcə də vərdişlərin təkmilləşdirilməsi məqsədilə praktiki atış tapşırıqları uğurla yerinə yetirilib.

# Bölmələrin döyüşə hazırolma qabiliyyəti məşq etdirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun qoşun növləri və hərbi hissələrində yeni tədris dövrü ilə əlaqədar praktiki məşğələlər keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq bölmələrin "Həyəcan" siqnalı ilə daimi dislokasiya məntəqələrini tərk etməsi məşq etdirilib.

Müasir döyüş təcrübəsi nəzərə alınmaqla keçirilən məşqlərdə Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunlarının bölmələri qarşılıqlı əlaqədə müxtəlif tapşırıqları yerinə yetiriblər.

Məşğələlərdə əsas diqqət mümkün təhdidlərin qarşısını dərhal almaq məqsədilə qoşunların döyüşə hazırolma qabiliyyətinin daha da inkişaf etdirilməsi, eləcə də bölmələrin dayanıqlı, fasiləsiz və operativ idarəedilməsini təmin etməkdir.



# Böyük britaniyalı mütəxəssislərin iştirakı ilə keçirilən təlim kursunda sertifikatlar təqdim olunub

*Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə nazirlikləri arasında imzalanan ikitərəfli hərbi əməkdaşlıq proqramı çərçivəsində cari ilin 23 yanvar - 2 fevral tarixlərində Təhlükəsizlik və Partlayıcı maddələrin Tədrisi Beynəlxalq Məktəbinin mütəxəssislərinin iştirakı ilə "Partlayış təhlükələri haqqında məlumatlandırma üzrə təlim kursu" keçirilib.*

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Milli Müdafiə Universitetinin rəhbər heyətinin, Birləşmiş Krallığın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auldun, o cümlədən hərbi attaşelik aparatının nümayəndələrinin, Təhlükəsizlik və Partlayıcı maddələrin Tədrisi Beynəlxalq Məktəbinin mütəxəssislərinin və dinləyicilərin iştirakı ilə kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatların təqdim olunması mərasimi keçirilib.

Mərasimdə çıxış edənlər keçirilən kursların qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıblar, Azərbaycan ilə Birləşmiş Krallıq arasında hərbi təhsil sahəsində mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini qeyd ediblər.



Birləşmiş Krallığın BMT-nin İnkişaf Proqramı çərçivəsində Azərbaycanda ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənərək zərərsizləşdirilməsi istiqamətində göstərdiyi dəstək xüsusi qeyd olunub. Kurs müddətində dinləyicilər tərəfindən əldə olunan bilik və bacarıqların işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsində tətbiq olunacağına əminlik ifadə edilib.



Sonda xatirə şəkli çəkdirilib.

# Növbəti "Komando başlanğıc kursu" başa çatıb

Quru Qoşunlarının 2023-cü il üçün döyüş hazırlığı planına uyğun olaraq, "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Mərasimdə Müdafiə Nazirliyinin rəhbərliyinin təbrikləri kurs iştirakçılarına çatdırılıb.

Buraxılış mərasimində çıxış edənlər məzunlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlığının daha da yüksəldilməsinə töhfə verən bu kimi kursların əhəmiyyəti xüsusi qeyd edilib.

Hərbi qulluqçulara sertifikatlar təqdim olunduqdan sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Sonda şəxsi heyət təntənəli marşla tribuna önündən keçib, xatirə şəkli çəkdirilib.





# Bir qrup hərbi tibb personalı Türkiyəyə göndərilib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun bir qrup hərbi tibb personalı artıq Kahramanmaraş ərazisindədir.

İyirmi nəfərdən ibarət heyət baş vermiş zəlzələdə xəsarət alan insanlara kömək etmək məqsədilə qardaş Türkiyədə fəaliyyət göstərəcək.

Müxtəlif tibb ixtisasları üzrə təcrübəli hərbi həkimlərimiz zəruri tibbi yardımın göstərilməsi üçün tam hazır vəziyyətdədir.




**Müdafiə Nazirliyinin Mətbuat Xidməti**

# Hulusi Akar: Azərbaycanla qardaşlığımız bir yumruq, bir ürək kimi davam edəcək

Dostumuz Azərbaycanla qardaşlığımız bir yumruq, bir ürək kimi davam edəcək. Azərbaycan tək deyil. Möhtərəm prezidentlərimizin yaratdıqları çərçivədə biz Azərbaycan Ordusunun modernləşdirilməsi, təlimi və təchizatı üzərində işləyirik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin müdafiə naziri Hulusi Akar "Milliyet" qəzetinə müsahibəsində söyləyib.

Zəngəzur dəhlizinin, ondan keçəcək dəmir və avtomobil yollarının region üçün iqtisadi, sosial həyat və təhlükəsizlik baxımından çox əhəmiyyətli olduğunu vurğulayan nazir deyib: "Ermənistanın Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın uzatdıqları sülh əlini tutmaq vacibdir. Başqalarının təsirinə məruz qalaraq xəyal qurmağın mənası yoxdur. Gəlin faktlara baxaq. Uyğun şərtlərlə müqavilə bağlayaq, sülhü, sabitliyi təmin edək, rahat, dinc yaşayaq. Biz Ermənistandan bu fürsətdən istifadə etməsini istəyirik".

# “Zabit hazırlığı kursu”nun növbəti buraxılışı olub



*Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində möhtəşəm Zəfərin qazanılmasında Azərbaycan Ordusunun digər kateqoriyadan olan hərbi qulluqçuları ilə yanaşı, gizirlərin də böyük xidmətləri olub.*

Müharibənin ilk günündən respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan hərbi əməliyyatlarda müxtəlif hərbi vəzifələr tutan "baş gizir" və "gizir" rütbəli hərbi qulluqçularımız da mərdlik, şücaət nümunələri göstəriblər. Neçə-neçə gizirimiz Qələbəyə gedən yollarda son gülləsinə, son nəfəsinədək vuruşub, şanlı döyüş tariximizə yeni-yeni qəhrəmanlıq səhifələri yazaraq şəhidlik zirvəsinə ucalıb. Neçəsi qanlı döyüşlər zamanı ağır yaralanmasına baxmayaraq, dağlardan, dərələrdən, meşələrdən, sərt, sıldırım qayalıqlardan keçərək bayrağımızı ən uca zirvələrə sancıb. Bu gün yüzlərlə gizir işğaldan azad edilən bölgələrimizdə xidmətlərini şərəflə davam etdirərək Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edir, sərhədlərimizin müdafiəsində ayıq-sayıq dayanaraq düşmən təxribatlarının qarşısını vaxtında və qətiyyətlə alır.

Azərbaycan Ordusunun gizirlərindən 10 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Yüzlərlə gizirimiz Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev respublikamızın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən, hərbi əməliyyatlar zamanı böyük təcrübə toplayan, hətta ən ekstremal vəziyyətlərdə taqım, bölük, heyət komandirinin vəzifəsini öz üzərinə götürərək fərqlənən gizirləri bir daha həvəsləndirmək, onların təcrübəsindən geniş şəkildə faydalanmaq məqsədilə zabit vəzifələrinə hazırlanması üçün kursların açılmasını məqsədəuyğun hesab edib və Müdafiə Nazirliyinin rəhbərliyi Müzəffər Ali Baş Komandanın bu təşəbbüs və tapşırığını da uğurla yerinə yetirmişdir.

2022-ci ilin may ayında Quru Qoşunlarında ilk belə bir kurs fəaliyyətə başlamış və birinci buraxılışı keçirilmişdir.

Bu günlərdə Quru Qoşunlarının hərbi hissələrindən birində "Zabit hazırlığı kursu"nun ikinci buraxılışı olub.

Hərbi hissəyə gələn müdafiə nazirinin müavini - Quru Qoşunları komandanı general-leytenant Ənvər Əfəndiyev gənc zabitləri salamlayaraq onları "Zabit hazırlığı kursu"nu uğurla başa vurmaqları münasibətilə təbrik edib.



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyünün qorunması və tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Quru Qoşunları komandanı deyib: "Hörmətli gənc zabitlər, İkinci Qarabağ müharibəsində - Vətən müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında qazandığımız möhtəşəm Zəfərin, eləcə də müharibədən sonrakı illərdə düşmən təxribatlarının qarşısını almaq məqsədilə aparılan hərbi əməliyyatlarda əldə etdiyimiz uğur və nailiyyətlərin yaratdığı böyük qələbə əhval-ruhiyyəsi ilə yaşadığımız bir vaxtda biz "Zabit hazırlığı kursu"nun növbəti buraxılışını edirik. Siz gənc zabitlər kurs dövründə peşəkarlığınızı, döyüş qabiliyyətinizi daha da artıraraq, böyük təcrübəyə malik olan təlimçi zabitlərdən dərs alaraq ordumuzun zabitlər korpusuna daxil olursunuz".

General-leytenant Ə.Əfəndiyev qeyd edib ki, zabit olmaq böyük şərəfdir və çox məsuliyyətli bir vəzifədir. Hərbi peşə, zabitlik peşəsi, Vətəni müdafiə işi müqəddəsdir. Siz bundan sonra da Vətənə, torpağa, müstəqil Azərbaycana, xalqımızın bu gününə və gələcəyinə daha sədaqətlə xidmət etməlisiniz.



Unutmamalısınız ki, bizim ordumuzun hər bir zabiti, hər bir komandiri fiziki cəhətdən sağlam olduğu kimi, mənəviyyatca da saf olmalıdır. Ulu Öndərin tövsiyə etdiyi kimi, mənəvi saflıq insanı daim ucaldır və lazım olan bütün başqa keyfiyyətlərin onda cəmləşməsinə əsas yaradır. Sizin tabeliyinizə əsgərlər veriləcək, hər bir əsgərə qardaş kimi, dost kimi diqqət göstərməlisiniz. Onların döyüş və mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da yüksəldilməsində, kollektivdə hərbi intizamın yüksəldilməsində sizlərin də öhdəsinə böyük məsuliyyət düşür. Əminəm ki, kurs müddətində əldə etdiyiniz nəzəri və praktiki biliklər hər zaman köməyinizə çatacaq.

Nəzərə çatdırılıb ki, Vətən müharibəsində əldə etdiyimiz qələbə heç vaxt bizi arxayınlaşdırmamalıdır. Hələ qarşımızda həll edəcəyimiz bir çox planlar, işlər durur. Yaddan çıxarmayın ki, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi, o cümlədən, onların havadarları utancverici məğlubiyyətlə barışmaq istəmirlər. Tez-tez xalqımıza, dövlətimizə qarşı təhdidlər edilməkdədir. Düşmən çirkin və məkrli niyyətlərindən əl çəkmək istəmir. Lakin biz hər an düşmən təxribatlarının qarşısını qətiyyətlə almağa hazır olmalıyıq və buna hər an hazırıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və eləcə də Müdafiə Nazirliyinin rəhbərliyi ordumuzun qüdrətlənməsi, hərbi qulluqçuların xidmət şəraitinin daha da yaxşılaşdırılması və sosial problemlərin müsbət həlli, şəhid ailələrinə, döyüşlərdə sağlamlığını itirənlərə böyük diqqət yetirdiklərini bir daha vurğulayan Quru Qoşunları komandanı bildirib ki, dünyanın heç bir ölkəsində rast gəlinməyən bu cür qayğı, münasibət bizim ölkəmizdədir.

Dövlətimizin başçısı cənab İlham Əliyevin Azərbaycan Ordusu haqqında danışarkən dediyi "Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda həmişə canından keçməyə hazırdır" fikirlərini xatırladan komandan bunun Vətən müharibəsi günlərində bir daha döyüşçülərimizin dəfələrlə əməli fəaliyyətləri ilə təsdiq etdiklərini yada salıb. Müharibədən sonra qarşı tərəfin təxribatlarına cavab olaraq həyata keçirilən hərbi əməliyyatlar zamanı da Azərbaycan Ordusunun şəxsi heyəti göstərdi ki, Müzəffər Ali Baş Komandanın Azərbaycan əsgəri haqqında söylədikləri fikirlər reallığa əsaslanır. Biz bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qorumağa, onun müstəqilliyini əbədi saxlamağa hazır və qadirik.

General-leytenant Ə.Əfəndiyev digər qoşun növləri ilə yanaşı, Quru Qoşunlarının şəxsi heyətinin də Ali Baş Komandanın qarşıya qoyduğu vəzifələri layiqincə yerinə yetirməyə hazır olduğunu bir daha



gənc zabitlərin nəzərinə çatdırıb. Əmin olduğunu bildirib ki, 2023-cü il "Heydər Əliyev İli"ndə də Azərbaycan əsgəri Ulu Öndərin 100 illiyini yeni-yeni nailiyyətlərlə qarşılayacaq və Zəfər tariximizə yeni parlaq səhifələr yazacaqdır.

Komandan çıxışının sonunda "Zabit hazırlığı kursu"nun yüksək səviyyədə təşkilində xidməti olanlara təşəkkür edib, xidmət edəcəkləri hərbi hissələrinə dönəcək gənc zabitlərə bir daha uğurlar, yorulmaz fəaliyyət arzulayıb.

"Zabit hazırlığı kursu"nun təlimçi zabiti, Vətən Müharibəsi Qəhrəmanı kapitan Ramazan Hudulov və gənc zabitlər adından çıxış edən kiçik leytenant Yəhya Şükürov göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər və bu göstərilən etimadı xidməti fəaliyyətləri ilə doğruldacaqlarına and içiblər.

Məzunlara sertifikatlar təqdim olunub. Quru Qoşunları komandanının kursun təşkilində fərqlənən təlimçi zabit, eləcə də fərqlənən məzunlardan bir qrupunun mükafatlandırılması haqqında əmri oxunub.

Kurs məzunu kiçik leytenant Vüqar İsmayılov məzunlar adından yaş kötüyünə xatirə emblemini vurub. Quru Qoşunları komandanı gənc zabitləri bir daha Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edərək onlara uğurlar arzulayıb və əmin olduğunu bildirib ki, "Zabit hazırlığı kursu"na "gizir" kimi gəlib "kiçik leytenant" rütbəsi ilə hərbi hissələrə dönəcək gənc zabitlər göstərilən etimadı nümunəvi xidmətləri ilə doğruldacaqlar.



Buraxılış mərasiminin rəsmi hissəsi başa çatdıqdan sonra Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin "Həzi Aslanov xatirələr işığında" pyesi əsasında Bakı Bələdiyyə Teatrının hazırladığı tamaşa təqdim olunub və mərasim iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) "N" hərbi hissəsini ziyarət etdi



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında "Ombudsman təsisatı hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar 2023-cü il üçün birgə tədbirlər planına əsasən Ombudsman Səbinə Əliyeva, aparatın nümayəndə heyəti və Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabitləri işğaldan azad olunmuş ərazilərimizdə yerləşən komando hərbi hissələrindən birini ziyarət etdilər.

Əvvəlcə hərbi hissədə şəhidlərin əziz xatirəsini əbədiləşdirmək üçün inşa edilən abidə kompleksi ziyarət olunaraq önünə tər gül dəstələri düzüldü. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

General-leytenant Mayis Bərxudarov qonaqlara 2021-ci ilin dekabrında Ali Baş Komandan İlham Əliyevin açılışını etdiyi hərbi hissənin yaranması və fəaliyyəti haqqında məlumat verdi.



Sonra qonaqlar hərbi hissədə şəxsi heyət üçün yaradılan yüksək məişət şəraiti ilə tanış oldular, əsgər yataqxanası, yeməkxana, qapalı idman zalı və digər obyektlərə baş çəkdilər.

Görüş zamanı hərbi qulluqçuların hüquqlarının müdafiəsi haqqında danışan Səbinə Əliyeva bildirdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında hüquqi maarifləndirmə işinin aparılması, hərbi qulluqçuların hüquqlarının təmini vəziyyəti və onların sosial-məişət şəraitinin yerində öyrənilməsi məqsədilə hərbi hissələrə müntəzəm olaraq ziyarətlərin təşkil olunması daima diqqət mərkəzində saxlanılır.

"Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu xalqımızın 30 illik torpaq həsrətinə son qoydu. İgid əsgər və zabitlərimiz illərdir işğalda olan ərazilərimizi azad etdilər. Bu gün azad olunan rayon və kəndlərimizdə, hakim yüksəkliklərdə Azərbaycanın şanlı bayrağı dalğalanır. İstər işğaldan azad olunan ərazilərimizdə, istərsə də digər hərbi hissələrimizdə xidmət edən hərbi qulluqçularımızın hüquqlarının müdafiəsi Ombudsman aparatının prioritet məsələlərindəndir. Bu məqsədlə Müdafiə Nazirliyi ilə birgə tədbirlər planına əsasən bundan sonra da hərbi hissələrimizdə görüşlər təşkil olunacaq, hərbi qulluqçularımızın müraciət və təkliflərini diqqətdə saxlayacağıq", - deyə S.Əliyeva bildirdi.



Sonra S.Əliyeva xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya hədiyyələr təqdim etdi, hərbi hissənin "Xatirə kitabı"na ürək sözlərini yazdı.

Görüş zamanı şəxsi heyətlə birlikdə nahar edən Ombudsman aparatının nümayəndələri hərbi hissənin yeməkxanasında hazırlanan ləziz təamlara və gigiyena qaydalarına tam əməl olunmasını yüksək qiymətləndirdilər.

Səfər çərçivəsində Ombudsman Hərbi Hospitalı da ziyarət etdi. Müasir tələblərə cavab verən hərbi tibb müəssisəsində yaradılan şəraitlə tanış olan Səbinə Əliyeva burada müalicə olunan hərbi qulluqçuların qayğıları ilə maraqlandı.

Sonda aparatın nümayəndələri ilə hərbi hissənin şəxsi heyətinin birgə xatirə şəkli çəkdirildi.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Qarlı dağlar, qətiyyətli oğullar, inamlı müdafiə



**(Əvvəli 1-ci səhifədə)**

Riyazi elmlərdə belə bir termin işlənir - aksiom. İlk dəfə qədim yunan filosofu Aristotelin işlətdiyi aksiom sübutsuz qəbul edilən fikir, ümumiyyətlə, dəlilə, sübuta ehtiyacı olmayan həqiqətdir. Zabitin ordumuzun təminatı, əsgərlərin xidməti, yüksək döyüş ruhu haqqında dediyi fikirlər də bu gün bütün cəmiyyətimiz üçün bir aksiomdur. Çünki əsgər və zabitlərimiz haqqında deyilən bütün müsbət fikirlər döyüş meydanında, Vətənin dar günündə təsdiqini tapıb. Azərbaycan əsgərinin İkinci Qarabağ müharibəsindəki şanlı qələbəsi, müharibədən sonra azad olunmuş ərazilərimizdə inamlı xidməti, qarşı tərəfin çox sayda təxribatlarının qarşısının uğurla alınması... və icra olunan digər xidmətlər artıq bütün dünyaya bu aksiomanı çatdırıb - Azərbaycan güclü dövlətdir və onun ərazi bütövlüyünü qorumağa qadir olan yenilməz, rəşadətli, qalib ordusu var...

Rəşadətin və qüdrətin əsas mənbəyi, bu qarlı zirvələrdə yurdumuza keşik çəkən igidlərlə görüşürəm. Simalarındakı xoş aura, şaxtadan qızaran yanaqlarının üstündə parlayan sevgi dolu gözlər adama o qədər doğma gəlir ki, sanki illərdir bir-birimizi tanıyırıq. "Gözlər qəlbin aynasıdır", deyirlər. Əsgərlər Samir Quliyev, Ayxan Kərimov, Rəvan İbrahimov, Ramazan Avazovun gözlərindən saçılan işıq da, onların ruhuna hakim olan vətənpərvərliyin, milli-mənəvi dəyərlərimizə bağlılığın, dövlətimizə sadiqliyin aynası olur.

Görüşümüz səmimi söhbətlə davam edir. Əsgərlər xidmətlərindən, yaddaqalan günlərindən danışırlar. Danışdıqları xatirələr ruhuma sığal çəkir, mənəvi rahatlıq verir. Vətənə xidmət etməkdən, ərazi bütövlüyümüzün keşiyində dayanmaqdan, Vətənimizə müsəlləh əsgər olmaqdan qürur duyduqlarını yekdilliklə vurğulayırlar. Onlar sosial şəraitlərinin və təminatlarının müasir standartlara cavab verdiyini deyir, bu qayğıya görə Ali Baş Komandana minnətdarlıqlarını bildirirlər. Samir Hərbi Andı qəbul etdiyi günün ən unudulmaz xatirə olduğunu deyir. Andına sadiq qalmaq amalı ilə xidmət etdiyini söyləyir. Ayxan ilk dəfə avtomatdan atəş açdığı və döyüş növbətçiliyinə çıxdığı gündən söhbət açır. Ana Vətənin müdafiəsində dayanmağın qürurunu, sevincini bölüşür. Artıq hərbi biliklərə, döyüş qabiliyyətinə malik olan bacarıqlı əsgər kimi formalaşdığını deyərək, hamı kimi vəzifələrinin məsuliyyətini və müqəddəsliyini yaxşı dərk etdiyini vurğulayır. Rəvan isə hərbi xidmətdə qazandığı müsbət keyfiyyətləri sayır. Ramazan silahdaşlarını göstərərək möhkəm və əbədi dostlar qazandığını bildirir.



Əsgərlər danışdıqca İkinci Qarabağ müharibəsi ərəfəsində Naftalan rayonu ərazisində yol kənarında olan evlərdən birinin qarşısında dayanan iki uşağı xatırlayıram. 4-5 yaşları olardı. Onlardan biri oğlan, biri qız idi. Bacı-qardaş olduqlarını düşünürdük. 44 gün ərzində hər gün o uşaqlar həmin yerdə əllərində bayraq yolla hərəkət edən hərbi maşınları salamlayırdılar. Bir əlləri ilə əsgəri salam verir, digər əlləri ilə bayrağı yelləyirdilər. O uşaqlar Azərbaycan xalqının Vətənə bağlılığının, Vətən sevgisinin, xalqın ordusuna olan dəstəyinin, güvəncinin göstəricisi olmuşdu. Belə çətin relyefli ərazilərdə xidmət edən əsgərlərin qətiyyəti mənə bir anlıq o uşaqları xatırlatdı. Bu əsgərlər də onlar kimi vətənpərvərlik ruhunda tərbiyə olunublar. O uşaqlar da böyüyüb bunlar kimi layiqli vətəndaşlar olacaqlar. O oğlan uşağı da böyüyüb Samir, Ayxan, Rəvan, Ramazan kimi müsəlləh əsgər olacaq, torpaqlarımızın keşiyində inamla dayanacaq. Orada dayanan uşaqlar, burada keçilməz çəpər olan igidlər, xalqımızın genlərinə hopan qəhrəmanlıq ruhu, Vətən sevgisi... bunların hamısı dövlətimizin işıqlı sabahlarının nişanələridir.

Vətən müdafiəçiləri ilə söhbət o qədər səmimi və maraqlı oldu ki, vaxtın necə keçdiyini hiss etmədik. Artıq sağollaşmaq vaxtı gəlib çatmışdı. Burada müşahidə etdiklərim, bölmənin şəraiti, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, qətiyyətli sözləri unudulmaz könül xoşluğu aşılayır. Ömür kitabıma yeni xatirələr yazır.

Yavaş-yavaş bölmədən uzaqlaşırıq. Bir anlıq geri boylanıb döyüş növbəsində dayanan əsgərlərə baxıram və bir daha əmin oluram ki, Vətəninə böyük məhəbbət hissləri ilə bağlanan igid hərbçilərimiz ən çətin relyefli ərazilərdə, istənilən hava şəraitində belə düşmənə keçilməz səddirlər.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda yeni tədris dövrünün məşğələləri keçirilir





2023-cü ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində yeni tədris dövrünün nəzəri məşğələləri keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, məşğələlərdə hərbi qulluqçulara onların vəzifə borcu və qarşıya qoyulan tapşırıqlar, eləcə də silah-texnikanın xüsusiyyətləri, onların effektiv istifadə olunması və təhlükəsizlik qaydaları çatdırılır.

Qeyd edək ki, qoşunların döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasını təmin etmək məqsədilə yeni tədris dövründə Azərbaycan Ordusunun hərbi hissələrində döyüşə hazırolma vəziyyətinin yoxlanılması üzrə tədbirlər həyata keçiriləcək. Bölmələr "Həyəcan" siqnalı ilə daimi dislokasiya məntəqələrini tərk edərək təlim mərkəzlərinə və ümumqoşun poliqonlarına hərəkət edəcəklər.

# Yeni tədris ilində yeni uğurlar

*Yeni tədris ilinin başlanması ilə əlaqədar "N" hərbi hissəsində mitinq keçirildi. Ənənəvi olaraq əvvəlcə rəsmi rituallar yerinə yetirildi. Şəxsi heyətin tədris ilinin başlanması münasibətilə sıra meydanında düzüldüyü barədə hərbi hissə komandirinə məruzə olundu. Hərbi hissə komandiri şəxsi heyətlə salamlaşdı, zabit və əsgərləri yeni tədris ilinin başlanması münasibətilə təbrik etdi, onlara xidmətlərində uğurlar arzuladı.*



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Tədbir iştirakçıları Azərbaycan



Respublikasının Dövlət Himnini ifa etdilər.

Yeni tədris ilinin başlanması münasibətilə çıxış üçün söz polkovnik-leytenant Mehman Ədilova verildi. Zabit yeni tədris ilində qarşıda dayanan vəzifələrdən qısaca söz açaraq dedi:

- Yoldaş zabitlər, gizirlər, çavuş və əsgərlər! Bu gün hərbi hissədə əlamətdar günlərdən biridir. Çünki biz sizlərlə bərabər ötən tədris ilini böyük uğurlarla arxada qoyaraq bu gün 2023-cü ilin yeni qış tədris dövrünə başlayırıq. Çıxışımı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bu sözləri ilə başlamaq istəyirəm: "Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var". Bildiyimiz kimi, nizami ordu suveren dövlətin ən mühüm atributudur. Orduda xidmət etmək, Vətənin keşiyində dayanmaq, onun müstəqilliyini, ərazi bütövlüyünü qorumaq hər bir vətəndaşın müqəddəs borcu, vəzifəsidir. Hamımıza yaxşı məlumdur ki, qüdrətli Azərbaycan dövləti günü-gündən inkişaf edir, möhkəmlənir. Bu gün xalqımız ordusuna güvənir, onunla fəxr edir. Bizim hərbi hissədə də Vətənini, torpağını qoruyan, işğalçıların hücumunu hər an dəf etməyə hazır və qadir olan Azərbaycan əsgərinin daha da güclənməsi, döyüş vərdişlərinin təkmilləşməsi, mənəvi-psixoloji cəhətdən hazırlanması üçün uğurlu işlər görülür və görüləcəkdir. İnanıram ki, yeni başlanan tədris dövründə də Hərbi Anda və nizamnamələrin tələblərinə sadiq qalaraq əsgəri borcunuzu bundan sonra da layiqincə yerinə yetirəcək, ixtisas biliklərinə dərindən yiyələnəcək, döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsində, hərbi intizamın möhkəmləndirilməsində səylərinizi daha da artıracaq, hər an Vətənimizin müdafiəsinə hazır olacaqsınız. Sizi yeni qış tədris dövrünün başlaması münasibətilə təbrik edir, hər birinizə möhkəm cansağlığı və xidmətinizdə uğurlar arzulayıram.

Sonra zabitlər İlqar Mahmudov, Əmrah Həsənov, Ayaz Baxışov, Tahir İbadov, Mirəli Mirismayıl, Emil Hüseynov çıxış edərək 2023-cü ilin yeni qış dövründə qarşıda dayanan vəzifələrdən danışdılar. Əminlik hissi ilə bildirdilər ki, ötən tədris ilində olduğu kimi, yeni tədris ilində də qarşıda dayanan tapşırıq və vəzifələri yüksək peşəkarlıqla yerinə yetirəcəklər. Yeni tədris ilində yeni-yeni uğurlar əldə edəcəklər.

Mitinq başa çatdıqdan sonra şəxsi heyət bölmələrdə qarşılarında dayanan vəzifələri yerinə yetirdilər. Biz də öz növbəmizdə zabit və əsgərlərin yeni tədris ilinin ilk günündə icra etdikləri tapşırıqların gedişini izlədik.

Kapitan Rəşad Ağayev yeni tədris ilinin başlanmasından, qarşılarında dayanan vəzifələrdən ətraflı söz açdı. Bildirdi ki, yeni tədris ilinin başlanması şəxsi heyətin məsuliyyət və diqqətini daha da artırır. "Həyəcan" çağırışları manqa, taqım, batareya, divizion və daha yüksək səviyyələrdə aparılır. İlk olaraq maskalanma tapşırıqları yerinə yetirilir. Sonra sürücülər silahlandırılaraq parka yola salınırlar. Onlar avtomobilləri işə salıb şəxsi heyətin gəlişini gözləyirlər.

Söhbətimiz başa çatdıqdan sonra bölük növbətçisi "Həyəcan" çağırışı verdi. Şəxsi heyət təlimata uyğun fəaliyyətə başladı.

Leytenant Orxan Ələsgərov dedi ki, yeni tədris ilinin başlanması şəxsi heyətin qarşısında mühüm vəzifələr qoyur. Yeri gəlmişkən deyim ki, ötən tədris ilində də xidmətimizdə mühüm nailiyyətlər əldə etdik. Bütün tapşırıqları bacarıqla yerinə yetirdik. Əminliklə deyə bilərəm ki, yeni tədris ilində də uğurlarımızı davam etdirəcəyik.

Yeni tədris ilinin ilk tapşırıqlarını yerinə yetirən zabit və əsgərlərlə həmsöhbət olduq.



Kiçik leytenant Elvin Orucov dedi ki, biz yeni tədris ilində yeni-yeni hərbi bilik və döyüş vərdişlərinə yiyələnəcəyik. Hərbi hissəmizin zabitləri də İkinci Qarabağ müharibəsində iştirak ediblər. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və qəhrəmanlıqlar göstəriblər. Düşmən üzərində tarixi Zəfərin qazanılmasına öz töhfələrini veriblər. Hərbçilərimizin döyüş hazırlıqları yüksək olduğuna görə müharibədə düşmənə qalib gəldilər. Deməli, döyüş hazırlığı yüksək olan əsgər qalib əsgərdir. Bütün bunları nəzərə alaraq yeni tədris ilində də döyüş hazırlığının artırılmasına istiqamətlənən dərs və məşğələlər keçəcəyik.

Daha sonra gizirlər Rauf Şirinov, Elvin Kərimov, əsgərlər Murad Hüseynli, Vaqif Atakişiyev və başqaları ilə də söhbət etdim. Onlar da yeni tədris ilində bilik və bacarıqlarını daha da artıracaqlarını bildirdilər.

Budur, artıq sürücülər avtomobilləri işə salıb çıxışa hazır dayanıblar. Döyüş maşınının komandiri gizir Rauf Şirinov dedi ki, "Həyəcan" çağırışı verilən kimi hər bir zabit, hər bir əsgər öz üzərinə düşən tapşırıqları yerinə yetirməyə başlayır. Tapşırığa uyğun olaraq sürücü Mehdi İbadov döyüş maşınını işə salıb, baş tuşlayıcı əsgər Əbutalib Talıblı da yerindədi. Növbəti komanda verilən kimi cəmləşmə rayonuna yola düşəcəyik.

Yeni tədris ilinin başlanması hərbi hissədə böyük canlanma yaratmışdı. Bu canlanmanı görəndən sonra əminlik hissi ilə deyə bilərik ki, hərbi hissənin şəxsi heyəti istənilən döyüş tapşırığını layiqincə yerinə yetirmək iqtidarındadır.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Milli Qəhrəman Mübariz İbrahimovun məzarı ziyarət edilib





*Fevralın 7-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu şəhidimizin məzarını ziyarət edib, üzərinə gül dəstələri düzərək xatirəsini ehtiramla anıb.*

Anma mərasimində çıxış edənlər Azərbaycanın tarixən öz qəhrəmanları ilə seçildiyini qeyd edərək Milli Qəhrəmanın göstərdiyi şücaət və qəhrəmanlıqdan danışıblar. Vətən yolunda canından keçməklə gənclərə örnək olacaq bir addım atan qəhrəmanımızın döyüş ruhunun, vətənpərvərlik və mübarizlik hissinin yüksək olduğu diqqətə çatdırılıb.



Mübariz İbrahimovun göstərdiyi rəşadətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyi xüsusi vurğulanıb.

Mərasimdə Vətənimizin azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin xatirələri bir dəqiqəlik sükutla yad edilib, məzarları üzərinə tər güllər düzülüb.

Həmin gün Milli Qəhrəmanın doğulub boya-başa çatdığı Biləsuvar rayonundakı evi də bir qrup hərbi qulluqçu tərəfindən ziyarət olunub.

**Müdafiə Nazirliyinin**
**Mətbuat Xidməti**

# Müharibə, Mübariz düşüncəsi və qisas

Sərhədlər yarananda, torpaqlar vətənləşəndən sonra qəhrəmanlıq da, qəhrəmanlar da var olub. Qəhrəmanlıq mənəvi zənginlikdən irəli gələn, xarakterdə formalaşan məfhumdur. Hər bir xalqın tarixində qəhrəmanlar olub. Vətən, xalq qarşısında taleyüklü məsələlərin həllində xüsusi rol oynayan cəsarətli insanlar tarixə adlarını qızıl hərflərlə həkk ediblər.

"Babək" filmində Babəkin dediyi "Azadlıq. İstər acı olsun, istər şirin. Yalnız o idi məni döyüşdən döyüşə aparan. Ölüm isə mənim son silahımdır" sözlərini xatırlayıram. Qəhrəmanlıq xalq naminə, dövlət naminə ən gərgin vəziyyətlərdə təmkinlə, cəsarətlə qərar qəbul etmək və bu qərarı sonlandırmaqdır. Çünki uğrunda öldükləri səbəblər həm də onları əbədi yaşadır.

Bir çox qəhrəmanların ömür yoluna nəzər salan zaman təxminən belə bir cümləyə rast gəlirik: "O, hələ uşaq yaşlarından müəyyən xüsusiyyətlərinə görə öz yaşıdlarından seçilirdi". Nə idi o seçilmə? O seçilmə hadisələrə ürəyinin gözü ilə baxmaqdımı? Özünü o hadisələrin içində hiss etməkdimi? Düşünürəm ki, bu kimi fikirlər həm də həqiqəti əks etdirir. İgidlik, mərdlik, qorxmazlıq, vətənsevərlik kimi ali xüsusiyyətlər onlarda hələ uşaq yaşlarından özünü göstərir. Qəhrəman qəhrəman kimi doğulmur, xarakteri qəhrəmanlıqların icraçısı olmaq səviyyəsində formalaşır; qəhrəmanlığı şərait və çətinlik üzə çıxarır. Qəhrəmanları şərait yaradır, tarixi isə qəhrəmanlar.

Tarix yazan igidlərimizdən biri də Mübariz İbrahimovdur. Mübariz qəhrəmanlığı müəyyənləşdirən bir çox ortaq cəhətləri - mərdliyi, qorxmazlığı, sədaqətliliyi, dürüstlüyü və ən əsası Vətən sevgisini özündə birləşdirmişdi. Belə igidlər özündən sonra gələn nəsillərə nümunə olurlar. Bu xüsusiyyətə malik olanlar tarixin ən çətin dönəmlərində ölkənin, xalqın ən çox ehtiyac duyduğu şəxslər olublar.



Mübariz Qarabağ müharibəsinin həmyaşıdı idi. Böyüyüb formalaşdıqca evdə, məktəbdə, televiziya verilişlərində erməni vəhşilikləri barədə çox eşitmişdi. Xocalı faciəsi qəlbinin qaysaqlamayan yarası idi. Hər dəfə Xocalı faciəsi haqqında televiziya verilişlərinə baxanda həmvətəni olan uşaqlara, qadınlara, ağsaqqallara, ağbirçəklərə verilən işgəncələri görəndə yumruqları düyünlənərdi. Onda ermənilərlə təkbaşına döyüşəcəyi məqam haqqındamı fikirləşərdi? Fikirlərini necə yerinə yetirəcəyinimi qətiləşdirirdi?..

Mübariz üçün Vətən hər şeydən üstün, hər şeydən qiymətli, hər şeydən uca idi. Deyərdi ki, mənim vurğunu olduğum Vətəndir! Ürəyində belə müqəddəs hisslər yaşadan, Vətəndən uca, əziz sevgi tanımayanlar ucalır şəhadətə. Şəhidlik ölümsüzlükdür...

Mübarizin sözünün əvvəli də, axırı da Vətən idi. Vətəni qorumağı, qoruya-qoruya döyüşməyi bir övlad kimi şərəf borcu sayırdı. Bilirdi ki, döyüşlərdə şəhid də ola bilər...

O müqəddəs məqama mərd, xalqını, Vətənini böyük məhəbbətlə sevən qartal timsallı insanlar yüksələ bilərlər. Belə ömür şərəflidir, əbədidir.

Həyatda şücaətlər göstərən, Vətən naminə çarpışan qəhrəmanların adı xatirələrdə daim yaşayır. Qəhrəmanlığıyla ölümsüzlüyə qovuşan Mübariz İbrahimov indi bütün azərbaycanlılar üçün iftixar mənbəyi, qürur yeridir.

"Hərənin öz yolu var" deyirdi. "Mən yolumu seçmişəm. Düşməndən ürəyimcə qisas almasam, elə bilərəm ki, Allahım da, valideynlərim də məni bağışlamaz...".

Mübarizin qəhrəmanlığı Azərbaycan xalqını mübarizləşdirmişdi. Gənclər hərbi xidmətə Mübariz amalı ilə gedirdilər, Mübariz niyyətiylə xidmət edirdilər. Bu, Azərbaycan dövlətinə ululuq sevgisiydi. Çingiz Qurbanov da Mübariz İbrahimov kimi düşmən üstünə getdi. Tək... Döyüşdə dörd erməni öldürdü. Düşünürəm ki, igid, qəhrəman Çingiz son nəfəsində də "Vətən" - deyib. Bu mübarizləşmə idi.

İkinci Qarabağ müharibəsində baş leytenant Elvin Şükürlü də düşmən mövqeyinə tək getmişdi. Şəhid əsgərin qisasını almaq üçün, o əsgərin timsalında bir qisaslıq təsəlli üçün. Getmişdi və qarşısına çıxan düşmənləri məhv etmişdi. Şəhid olmuşdu Elvin. Mübarizləşmə budur!..

Azərbaycan əsgəri bu gün də Mübariz İbrahimovun davamçısı kimi xidmət etməyi özünə şərəf bilir...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə zəlzələ qurbanlarının sayı 5894 nəfərə çatıb



Türkiyədə zəlzələ nəticəsində həlak olanların sayı 5894 nəfərə, yaralananların sayı isə 34 min 810 nəfərə çatıb.

Bu barədə Türkiyənin Vitse-prezident Fuad Oktay canlı yayımda bildirib.

Xatırladaq ki, Xatırladaq ki, fevralın 6-da yerli vaxtla saat 04:17-də Türkiyənin Kahramanmaraş vilayətinin Pazarcık rayonunda 7,7 bal, saat 13:24-də isə Elbistan rayonunda 7,6 bal gücündə iki zəlzələ baş verib. Fevralın 7-də Adıyaman şəhərinin Gölbaşı rayonunda 5,3 bal gücündə daha bir zəlzələ olub. Dərinliyi 7 kilometr olan zəlzələ 10 vilayətdə ciddi dağıntılara səbəb olub.

## Kanada Ukraynaya vəd etdiyi "Leopard 2" tanklarından birincisini göndərib



Kiyevə vəd edilən dörd ədəd "Leopard 2" tankından birincisi Kanadadan Ukraynaya göndərilib.

Bu barədə Kanadanın milli müdafiə naziri Anita Anand tviter səhifəsində yazıb. O qeyd edib ki, texnika Kanada Hərbi Hava Qüvvələrinə məxsus təyyarədə Halifaksdan (Yeni Şotlandiya əyaləti) havaya qalxıb.

Daha əvvəl bildirilib ki, Kanada ordusunda 112 ədəd "Leopard" tankı var ki, onlardan 82-si döyüş maşını, qalanları isə təlim üçündür. Dörd döyüş tankını Ottava Kiyevə göndərəcək.

## "General Dynamics" Ukrayna üçün yeni "Abrams" tankları istehsal edəcək



ABŞ-ın "General Dynamics" şirkəti Ukrayna üçün yeni "Abrams" tanklarının istehsalına başlayacaq.

Bu barədə "Financial Times" qəzeti yazıb.

Bildirilib ki, şirkətin Ohayo ştatındakı zavodu ayda təxminən 12 tank istehsal edir.

Qeyd edək ki, Pentaqon Kiyevə 31 ədəd "M1 Abrams" tankı tədarük etmək barədə qərar verib. Yerli mətbuatın məlumatına görə, "Abrams" tankları Ukraynaya 2023-cü ilin sonundan tez çatdırıla bilər.

## Belarus Rusiyadan Mi-35M helikopterləri alacaq



Belarus aprel ayına qədər Rusiyanın Mi-35M helikopterlərini alacaq.

Bunu STV telekanalında Belarus Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qüvvələrinin komandanı Andrey Lukyanoviç bildirib.

Qeyd olunub ki, helikopterlərlə yanaşı, bu il SU-30SM təyyarələrinin alınması da planlaşdırılır.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# “Ürəyi Vətən eşqi ilə döyünən Şəhnin”






*Azərbaycan Hərb Tarixi Muzeyində İkinci Qarabağ müharibəsi şəhidi Şəhnin Novruzova həsr olunan "Ürəyi Vətən eşqi ilə döyünən Şəhnin" adlı anım mərasimi keçirildi. Tədbirdə şəhidin ailə üzvləri, yaxınları, döyüş yoldaşları, qazilər və ictimaiyyət nümayəndələri iştirak edirdilər.*

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Muzey rəisi, istefada olan polkovnik Əzizağa Qənizadə qonaqları salamladıqdan sonra çıxışına başladı: "Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi uğrunda düşmən təxribatı nəticəsində başlanmış Vətən müharibəsindən iki ildən artıq vaxt ötür. Döyüşlərdə iştirak edən Azərbaycan Ordusunun şəxsi heyətinin gücünü, qüdrətini, qorxmazlığını bütün dünya gördü. Qarabağın tacı, mədəniyyət beşiyimiz olan Şuşanın döyüş texnikasından istifadə olunmadan düşməndən azad edilməsi müharibənin kulminasiya nöqtəsi oldu. Təəssüflər olsun ki, müharibə itkisiz olmur. Şəhnin kimi şəhidlik zirvəsinə ucalan hər bir Vətən övladını dərin hörmət və ehtiramla yad edirik. Onların mərdliyi, cəsarəti sayəsində indi torpaqlarımız işğaldan azaddır".

Şəhidin anası İlahə Novruzova bildirdi ki, Şəhnin ürəyi Vətən sevgisi, Qarabağ həsrəti ilə döyünürdü. "Şəhnin üç oğul övladlarımın ən böyüyü idi. Sentyabrın 27-si müharibə başlayanda, torpaqlarımızı azad edənlərin sırasında olacam dedi. Arzusuna çatdı. Tezliklə döyüşlərə yollandı. Şəhnin bizlə sağollaşarkən mənə baxıb dedi: "Mən bu döyüşlərdə ən yüksək adı qazanacam. O vaxt hər kəs səni barmaqla göstərəcək. Qəhrəmanın anasıdır deyəcək. Əgər şəhid olsam, ağlama". Oktyabrın 20-sində oğlumun şəhid olduğu xəbərini eşidəndə onun son sözlərini xatırlayıb dediyi kimi də etdim. Onu mərd və dözümlü Azərbaycan xanımı kimi son mənzilə yola saldım. O, Xocavənd uğrunda gedən döyüşlərdə şəhid oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra oğlum "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medallarına layiq görüldü.

Tədbirin sonunda şəhidin həyat və döyüş yolundan bəhs edən videoçarx nümayiş olundu. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdilər.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

Maraq dünyamız

# Madaralı atlı

*Madaralı atlı Bolqarıstanın Madara kəndi yaxınlığında qaya üzərində oyulmuş qədim atlı obrazıdır. Abidə Avropada VIII əsrə aid yeganə monumental daş barelyefi hesab edilərək, 1979-cu ildə UNESCO tərəfindən ümumdünya irs siyahısına daxil edilib.*

Eramızın birinci minilliyinin nadir şahidlərindən biri hesab edilən abidə Varna şəhərindən 75 km qərbdə hündür qayalığın üzərində yerləşir. Hündürlüyü 2,6 metr, eni 3,1 metrdir.

Arxeoloji abidənin böyük hissəsi zəlzələ nəticəsində iki hissəyə bölünüb.

Madaralı atlı 1872-ci ildə avstriyalı tədqiqatçı və etnoqraf Feliks Filip Kanitz tərəfindən aşkar edilib. Tapıntının öyrənilməsinə çex və bolqar arxeoloqu Karel Şkorpil böyük töhfə verib. Əksər tarixçilər abidənin Bizans dövrünə, yəni, VII əsrin əvvəllərinə Tervel xanın (700-715-ci illər arasında hökm sürən Birinci Bulqar dövlətinin ikinci xanı) hakimiyyəti dövrünə aid edirlər. Onların fikrincə, barelyefdə məhz "xan" təsvir olunub. Qaya üstündə yazılmış üç yazıdan biri Orta Aralıq dənizi xalqlarının dilində ən qədim yazı hesab edilir. Yazı hökmdarın göstərişi ilə burada həkk olunub; qalan iki yazı daha sonra VIII-IX əsrlərin əvvəlləri və IX əsrdə meydana gəlib.

Qayanın üzərində "As-



lanı nizələyən atlı və onun arxası ilə qaçan köpək həkk olunub. Təsvir bəzi hissələrdə qeyri-müəyyəndir, bəziləri atlının əlində qartalın və atın quyruğunun hörük olduğunu söyləyirlər". Təsvirin üçölçülü olması həmin əsərlərin bulqar mədəniyyəti üçün xarakterik deyil. Ona görə də belə bir versiya var ki, barelyefin üzərində Trakiya tanrısı həkk olunub və onun yaradılması təxminən V əsrə aiddir.

Atlının ətrafında yunan dilində qayaya həkk olunmuş üç yazı var. Bu mətnlər qədim Bulqar dövlətində baş vermiş mühüm hadisələrdən bəhs edir. İlk yazının VIII əsrin əvvəllərinə aid edildiyi, digər ikisinin isə Krum (796-814) və Omurtaq (814-831) xanlarının dövründə qaya üzərinə həkk edildiyi güman edilir. Maraqlıdır ki, "bulqarlar" adı ilk dəfə bu qaya salnaməsində çəkilir.

Madara dağının “qırışları”ndan daima zəvvarların müqəddəs hesab etdiyi su axır. Dağın zirvəsində IV əsrin sonlarında əsası qoyulmuş və bu torpaqların Osmanlı türklərinin nəzarətinə keçənə qədər, X əsrə yaxın mövcud olmuş Madara qalasının və ya "Bulqar Troyası"nın xarabalıqları qorunub saxlanılıb. Dağ silsiləsinin ətəyində Roma tikililərinin qalıqlarına belə rast gəlinir. Bütün bu tarixi və arxeoloji tapıntılar "Madar" tarixi-arxeoloji qoruğunun bir hissəsidir.

1981-ci ildə Bolqarıstan dövlətçiliyinin 1300 illiyini qeyd edərkən xatirə sikkələrindən birinin üzərində "Madaralı atlı" zərb edilib. Bundan əlavə, Bolqarıstan Respublikasında bu ölkə ilə ikitərəfli əlaqələrin inkişafına böyük töhfə vermiş bolqarlara və xarici ölkələrin vətəndaşlarına "Madaralı atlı" ordeni təqdim edilir.

Bu gün qədim relyef məşhur turistik məkana çevrilib. Bura 400 pilləli daş pilləkənlə qalxılır. Ətrafda daş dövrü insanlarının və ilk xristianların istifadə etdiyi bir neçə mağara qorunub saxlanılıb.

**"Azərbaycan Ordusu"**

# İdman

## Milli komandamız qitə çempionatında 6 medal qazanıb



Azərbaycan karateçiləri Kiprin Larnaka şəhərində yeniyetmə və gənclərin 50-ci Avropa çempionatında 6 medal qazanıb. Mükafatların üçü qızıl, biri gümüş, ikisi isə bürüncdür.

Aysu Əliyeva (-59 kq) 16-17 yaşlı qızların yarışında, Fərid Savadov (-55 kq) eyni yaş qrupunda oğlanlar arasında, Əminağa Quliyev isə (-60 kq) 21 yaşadək gənclərin turnirində Avropa çempionu olub. Gülay Orucova 14-15 yaşlı yeniyetmələr arasında gümüş medala, eləcə də Rahim Əzim (70+) eyni yaş qrupunda, Hüseyn Məmmədli isə 21 yaşadək gənclərin yarışında bürünc medala sahib olub.

Salman Salmanov (kata) 14-15 yaşlı yeniyetmələrdə, Fatima Məmmədova (-47 kq) isə onunla eyni yaş qrupunda kumite yarışlarının bürünc mükafatını əldən verib. Bu nəticə ilə Azərbaycan ümumi komanda hesabında 4-cü yeri tutub. 3 yaş qrupu üzrə 50-ci qitə çempionatında 48 ölkədən 1114 karateçi iştirak edib.

## Cüdoçularımız “Böyük dəbilqə” turnirini bir dəst medalla başa vurublar



Parisdə keçirilən "Böyük dəbilqə" turnirində Azərbaycan cüdoçuları 1 qızıl, 1 gümüş və 1 bürünc medal əldə ediblər.

Yarışın birinci günündə Balabəy Ağayev (60 kq) final görüşündə Fransa təmsilçisi Sedrik Revolı məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Turnirin ikinci günündə Murad Fətiyev (90 kq) final görüşündə niderlandlı cüdoçu Noel Van T End ilə qarşılaşıb. Məğlub olan təmsilçimiz gümüş medalla kifayətlənib.

Zelim Kotsoyev (100 kq) isə belçikalı cüdoçu Toma Nikiforova qalib gələrək bürünc medala sahib olub.

Azərbaycan medal əyarına görə ümumi hesabda və kişilər arasında dördüncü yeri tutub.

## Sumoçularımız Estoniyada Avropa kuboku yarışlarında altı medala sahib olublar



Azərbaycan sumoçuları Estoniyanın Vinni şəhərində böyüklər arasında keçirilən Avropa kuboku yarışlarında 3 qızıl və 3 gümüş medal qazanıblar.

Camal Feyziyev (mütləq çəki və +115 kq) və Röyal Ağamalıyev (85 kq) qızıl, Sadiq Ağamalıyev (115 kq), Cavid Mustafayev (77 kq) və Xəyyam Abdullayev (70 kq) gümüş medala sahib çıxıblar.

Azərbaycan yığması komanda hesabında birinci olub.

## Taekvondoçumuz Türkiyədə keçirilən Prezident kubokunun qalibi olub



Azərbaycan taekvondoçusu Qaşım Maqomedov Türkiyədə keçirilən Prezident kubokunu qızıl medalla başa vurub.

58 kq çəki dərəcəsində çıxış edən idmançı bütün rəqiblərinə qalib gələrək, İstanbulda ölkəmizin Dövlət Himnini səsləndirib.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Heybətov Habil Bəxtiyar oğluna məxsus SQ № 0023862 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 89 Nüsxə 4661 |